## *LALƏLİ (LƏLƏ) TƏPƏ*

Aprel döyüşlərində qazandığımız qələbə münasibəti ilə

***Ey düşmən, vardı ah, nalə özümdə,***
***Laləli təpəni aldı Əsgərim!***
***Nalə səndə qaldı, Lalə özümdə***
***Laləli təpəni aldı Əsgərim!***

***Canımda, qanımda nisgil azaldı,***
***Əsgərim döyüşüb qələbə çaldı,***
***Lalə mənə qaldı, gül mənə qaldı***
***Laləli təpəni aldı Əsgərim!***

***Unutmasın düşmən, yağı, alarıq,***
***Gülşəni alarıq, bağı alarıq.***
***Təpəmizi aldıq, dağı alarıq,***
***Laləli təpəni aldı Əsgərim!***

***Gün gələr, yetişər zəfər çağı da,***
***İgid Əsgər gərək Ləşkər dağıda,***
***İnşallah alarıq Qarabağı da,***
***Laləli  təpəni aldı Əsgərim!***

Güləmail, M.

Ədalət.- 2016.- 9 iyul.- S. 14.